***"Əgər inkişaf etmiş ölkələr bu vaksinləri öz aralarında ədalətli bölə bilmirlərsə və qarşılıqlı ittihamlar irəli sürürlərsə, onda başqa ölkələr nə fikirləşməlidir? Kasıb ölkələr, inkişafda olan ölkələrin vətəndaşları, bəs onlara kim kömək göstərəcək? Bu haqda düşünülmür? Mən inkişaf etmiş bir çox ölkələrin liderlərindən bu günə qədər bu çağırışları eşitməmişəm". Bu fikirləri Prezident İlham Əliyev Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışında Azərbaycan Televiziyasına verdiyi müsahibədə səsləndirib. Dövlət başçımız ölkədə səhiyyə sisteminin indiki vəziyyəti, pandemiya, hazırda koronavirusun yayıldığı əksər ölkələrdə icrasına başlanan vaksinasiya prosesi və peyvəndlərin bölgüsünə xüsusi münasibət bildirib.***

# Vaksinlərin bölgüsündə ədalətsizliyə yol vermək olmaz



Prezident xatırladıb ki, BMT Baş Assambleyasının xüsusi sessiyasında Qoşulmama Hərəkatının sədri kimi çıxış edərkən, bu bəlaya qarşı mübarizədə zəngin ölkələri məsuliyyət göstərmələri üçün həmrəyliyə çağırdığını xatırlatdı. Peyvəndin bütün ölkələrin xalqlarına çatmalı olduğunu, hətta kasıb ölkələrin vətəndaşları üçün zəngin olan ölkələrin o peyvəndi alıb onlara ötürmələrini təklif etdiyini yada saldı. Bildirdi ki, prinsipcə, bu çağırışları bir çox ölkələrin dəstəkləməsinə baxmayaraq, hazırda sözlə əməl arasında böyük bir fərq görünür.

Cənab Prezident vaksinlərin bölgüsünə toxunaraq, bu sahədə müəyyən ölkələr arasında baş verən gərginlikdən söz açdı. Bunu müttəfiqlər arasındakı münasibətlərdə olan ziddiyyətlər kimi dəyərləndirdi. Avropa İttifaqı (Aİ) ölkələri və Böyük Britaniyanın NATO-nun üzvləri olduğunu və onların arasında belə qalmaqalın bir çox suallar doğurduğunu vurğuladı. Bildirdi ki, Aİ nümayəndələri Böyük Britaniyanı ittiham edirlər ki, onların istehsal etdikləri vaksinin qeyri-ədalətli bölünməsi ilə bağlı çox ciddi proseslər gedir. Böyük Britaniya vətəndaşlarının 13 faizi, Aİ vətəndaşları isə cəmi 2 faiz peyvənd alıb. Əgər belə gedərsə, Böyük Britaniya əhalisinin 75 faizini iyul ayına qədər vaksinlə təmin edəcək, Aİ isə oktyabr ayına qədər. Prezident haqlı olaraq dedi ki, bəzi istehsal sahələri Avropada təşkil olunduğuna görə, belə bir qalmaqal yarandı. Əlbəttə ki, biz gərək buna diqqətlə nəzər salaq.

Dövlət başçımız bildirdi ki, mən sədrliyi öz üzərimə götürərkən demişdim ki, Azərbaycan beynəlxalq hüququ və ədaləti müdafiə edəcək, bütün üzv ölkələrin maraqlarını müdafiə edəcək və biz bunu edirik. Biz özümüzü bu sahədə də məsuliyyətli ölkə kimi aparırıq və bundan sonra da öz səsimizi daim ucaldacağıq. Çünki istisna edilmir ki, bundan sonra vaksinlər uğrunda mübarizə daha da kəskinləşəcək və bu, çox faciəvi fəsadlara gətirib çıxara bilər.

Azərbaycanın Cənubi Qafqazda ilk olaraq vaksinasiya işlərinə start verdiyini bildirən dövlət başçımız qeyd etdi ki, yerləşdiyimiz bölgədə Azərbaycan birincilər sırasındadır. Bu, onun nəticəsidir ki, pandemiyanın ilk günlərindən işlər düzgün qurulmuşdur, bütün lazımi addımlar atılmışdır, beynəlxalq təşkilatlarla təmaslar qurulmuşdur. Ölkəmiz COVAKS təşəbbüsünün üzvüdür və həmin xəttlə müxtəlif vaksinlər ölkəmizə gətiriləcək. Azərbaycan bir neçə şirkətlə vaksinlərin ölkəmizə gətirilməsi ilə bağlı müqavilələr bağlayıb. Prezident dedi ki, eyni zamanda, biz artıq 4 milyon doza vaksin sifariş etmişik və onların artıq Azərbaycana gəlməsi təmin edilib. Bunlar, Çin istehsalı olan vaksinlərdir. Yanvarın 18-dən başlayaraq, Azərbaycanda vaksinasiya başlamışdır. Müqayisə üçün deyə bilərəm ki, Avropa İttifaqında bu, keçən il dekabrın 18-də başlamışdır. Yəni, bir aydan sonra artıq Azərbaycan vətəndaşları bu vaksinləri alırlar, peyvənd olunurlar, əlbəttə ki, bu, vaksinasiya sahəsində də bizim səmərəli işimizin təzahürüdür.

Prezident vaksin bölgüsü ilə bağlı daha başqa məqamları da açıqladı və bildirdi ki, indiki şəraitdə, xüsusilə zəngin ölkələr arasında olan bu ixtilaflar istehsalçılara da mənfi təsir göstərir, bir çox ölkələrin vətəndaşlarını bu vaksinlərdən məhrum edir. Ondan başqa, bu, dünyada ölkələr arasındakı inamsızlığı da alovlandırır. İnkişaf etmiş ölkələr dünya əhalisinin 14 faizini təşkil edir. Halbuki inkişaf etmiş ölkələr bu günə qədər dünya vaksinlərinin 53 faizini sifariş ediblər. Yəni, bu, yenə də ədalətsizlik, qeyri-bərabərlikdir. Amerika istehsalı olan "Moderna" vaksininin 98 faizini, Avropa istehsalı olan "Pfizer" vaksininin 96 faizini zəngin ölkələr sifariş ediblər. Dövlət başçısı haqlı olaraq soruşur: "Yaxşı, bəs kasıb ölkələrin vətəndaşları nə etməlidirlər, xəstələnməlidirlər? Onlar xəstələnəndə onların ölmək ehtimalı daha böyükdür. Çünki o ölkələrdə səhiyyə sistemi inkişaf etmiş ölkələrdən müqayisəedilməz dərəcədə geridə qalıb".

Əhalisi 38 milyon olan Kanada 154 milyon insan üçün vaksinlər sifariş edib. Bu, həmin ölkədir ki, onun hökuməti, Vətən müharibəsi zamanı sırf ermənipərəst mövqe sərgiləyir, işğalçıları dəstəkləyirdi. Azərbaycanın haqq işinə kölgə salmaq istəyirdi, hətta "Bayrakdar" pilotsuz uçuş aparatlarının kameralarının Türkiyəyə ixrac edilməsi ilə bağlı əsassız embarqo qoymuşdu. Prezident qeyd etdi ki, həmin bu erməniपərəst ölkə 154 milyon vaksin sifariş edib, onun pulunu verib, amma öz ölkə əhalisinin sayı 38 milyondur. Yəni, dörd dəfə çox peyvənd alıb. Deməli, 120 milyona bu vaksin çatmayacaq: "Onlar almayacaqlar, onlar xəstələnəcəklər, öləcəklər. Bunların vecinə deyil. Bunlar ancaq eqoist hisslərə qapılaraq öz maraqlarını təmin etmək istəyirlər. Belə olan halda hansı demokratiyadan söhbət gedə bilər? Deməli, kasıb ölkələrin insanlarının haqları tapdalanır, onların səhhəti, sağlamlığı risk altına düşür. Amma zəngin ölkələr öz maraqlarını artıqlaması ilə təmin edirlər".

Dövlət başçımız bunun, sadəcə olaraq, bu xəstəliklə bağlı olan məsələ olmadığını, çox dərin kökləri olduğunu diqqətə çatdırdı. Bu köklərin bizi müstəmləkəçilik dövrünə apardığını qeyd etdi. Vurğuladı ki, elə bil ki, biz neomüstəmləkəçilik dövrünü qeyri-rəsmi müşahidə edirik, yaxud da ki, elan edilməmiş müstəmləkəçilik görürük. Çünki bunun başqa adı yoxdur. Belə olan halda bu ölkələrin kiməsə nəsə deməyə, kiməsə nədəsə ittiham etməyə mənəvi haqqı olmadığını deyərək, bu addımı eqoizm, vicdansızlıq adlandırdı.

Azərbaycan Prezidenti Qoşulmama Hərəkatına sədrlik edən ölkə olaraq səssiz qalmayacağını dedi: "Bu gün mən bu imkandan istifadə edərək Qoşulmama Hərəkatının üzvlərinə də çağırış edirəm ki, onlar da bizim səsimizə qoşulsunlar və biz bu məsələni beynəlxalq kürsülərdə, BMT kürsüsündə qaldırmalıyıq. Ümumdünya Səhiyyə Təşkilatına müraciət etməliyik, şirkətlərə müraciət etməliyik, zəngin ölkələrə müraciət etməliyik ki, bu ölkələr bu praktikadan əl çəksinlər. Bu, ədalətsizlikdir".

***Yazgül ABDIYEVA,***
***"Sağlamlığın Qorunması" İctimai Birliyinin sədri, tibb üzrə fəlsəfə doktoru***

Xalq qəzeti 2021.- 5 fevral.- S.6.